# XXI ƏSRDƏ ÇİN AZƏRBAYCAN MÜNASİBƏTLƏRİNƏ TƏSİR EDƏN ƏSAS FAKTORLAR VƏ İQTİSADİ ƏHƏMİYYƏTİ

DOİ: 10.71447/2413-7235-2026-1-65

**Aydan F. Hüseynli**
*Bakı Mühəndislik universiteti, Magistr*
*E-poçt: aydanhuseynli23@icloud.com*
*ORCID: 0009-0000-8699-1009*

**Xülasə**

XXI əsr Çin Azərbaycan münasibətlərinin strateji tərəfdaşlıq mərhələsinə keçdiyi dövr kimi xarakterizə olunur. Bu tərəfdaşlıq, tarixi diplomatik əlaqələri aşaraq daha dərin və çoxşaxəli xarakter almış, siyasi, iqtisadi və tranzit sahələrində mühüm rol oynamışdır. Belə əlaqələrin formalaşmasında bir sıra amillər həlledici əhəmiyyət kəsb etmişdir. Bu amillərə qlobal siyasi dəyişikliklər, regional iqtisadi inteqrasiya prosesləri, energetika strategiyaları və nəqliyyat logistika imkanları aiddir. Qloballaşma şəraitində bu faktorlar iki ölkə arasında əməkdaşlığın intensivləşməsini və yeni məzmun kəsb etməsini şərtləndirmişdir.

1992-ci ildə diplomatik münasibətlərin qurulmasıyla birlikdə başlayan Çin Azərbaycan əlaqələri zamanla genişlənmiş və təkcə siyasi dialoqlarla məhdudlaşmayaraq, qarşılıqlı maraqlara əsaslanan çoxşaxəli əməkdaşlıq modelinə çevrilmişdir. Bu əməkdaşlıq XXI əsrdə xüsusilə strateji mərhələdə müəyyənləşdirilən regional və qlobal məqsədlərlə birbaşa əlaqəlidir. Bu səbəbdən, Çin Azərbaycana təkcə investisiya və ticarət tərəfdaşı olaraq yanaşmır; bununla yanaşı bu tərəfdaşlıq, enerji təhlükəsizliyi, geosiyasi balanslaşdırma və beynəlxalq iqtisadi inteqrasiya, qlobal logistika şəbəkələrinin strategiyası kimi qarşılıqlı mənafelər üzərində qurulmuşdur.

XXI əsrdə Çin Azərbaycan münasibətlərinə təsir edən əsas faktorlar arasında energetika əməkdaşlığı, texnologiya transferləri, təhsil və mədəni əlaqələrin inkişafı, investisiya layihələrinin genişləndirilməsi, bununla yanaşı rəqəmsal və yaşıl iqtisadiyyat təşəbbüsləri xüsusi yer tutur. Eləcə də, Azərbaycanın yüksək idarələşmə potensialı, institusional sabitliyi və beynəlxalq layihələrin effektiv icra qabiliyyəti bu münasibətlərin inkişafında mühüm faktor kimi çıxış edir. Xüsusilə son illərdə imzalanan strateji əməkdaşlıq sənədlərində “rəqəmsal iqtisadiyyat”, “yaşıl enerji” və “intellektual mülkiyyət hüquqları” kimi yeni sahələrə diqqət ayrılması, iki ölkə münasibətlərinin müasir çağırışlara uyğun şəkildə formalaşdığını göstərir.

Nəticə etibarilə, araşdırma göstərir ki, qarşılıqlı fayda prinsipləri üzərində qurulan Çin Azərbaycan əməkdaşlığı yalnız diplomatik və iqtisadi yanaşmalarla kifayətlənə bilməz. Münasibətlərin davamlı inkişafı üçün strateji tərəfdaşlıq çərçivəsində hüquqi-institusional əsasların möhkəmləndirilməsi, effektiv idarəetmə mexanizmlərinin tətbiqi və nəqliyyat-logistika potensialının səmərəli istifadə mühüm əhəmiyyət daşıyır. XXI əsr Çin Azərbaycan münasibətləri bu baxımdan həm perspektivlərini, həm də hüdudlarını aydın şəkildə nümayiş etdirir.

***Açar sözlər:*** *Çin–Azərbaycan münasibətləri, strateji tərəfdaşlıq, energetika əməkdaşlığı, nəqliyyat-logistika, rəqəmsal iqtisadiyyat, idarələşmə potensialı*

# KEY FACTORS INFLUENCING CHINA–AZERBAIJAN RELATIONS IN THE 21ST CENTURY AND THEIR ECONOMIC SIGNIFICANCE

**Aydan F. Huseynli**
*Baku Engineering University, Master's Degree*
*Email: aydanhuseynli23@icloud.com*
*ORCID: 0009-0000-8699-1009*

**Summary**
The 21st century is characterized as a period in which China–Azerbaijan relations have reached the stage of strategic partnership. This partnership has gone beyond historical diplomatic ties, acquiring a deeper and more multifaceted character, playing a significant role in political, economic, and transit spheres. Several factors have been decisive in shaping these relations, including global political changes, regional economic integration processes, energy strategies, and transport-logistics capabilities. In the context of globalization, these factors have contributed to the intensification of cooperation between the two countries and the acquisition of new dimensions.
Since the establishment of diplomatic relations in 1992, China–Azerbaijan relations have gradually expanded, evolving into a multifaceted cooperation model based on mutual interests rather than limited to political dialogue. This cooperation in the 21st century is directly linked to regional and global objectives defined at the strategic stage. Therefore, China approaches Azerbaijan not only as an investment and trade partner but also as a collaborator in energy security, geopolitical balancing, international economic integration, and global logistics networks.
The main factors influencing China–Azerbaijan relations in the 21st century include energy cooperation, technology transfer, development of educational and cultural ties, expansion of investment projects, as well as initiatives in the digital and green economy. In addition, Azerbaijan's high governance potential, institutional stability, and efficient implementation of international projects act as a key factor in the development of these relations. Notably, recent strategic cooperation agreements have focused on "digital economy," "green energy," and "intellectual property rights," demonstrating that bilateral relations are shaped in accordance with contemporary challenges.
In conclusion, the study shows that China–Azerbaijan cooperation based on mutual benefit principles cannot be limited to diplomatic and economic approaches alone. For sustainable development of the relations, strengthening legal-institutional frameworks, implementing effective governance mechanisms, and efficiently utilizing transport-logistics potential are of critical importance. In this regard, the 21st century clearly demonstrates both the prospects and limits of China–Azerbaijan relations.
***Keywords:*** *China–Azerbaijan relations, strategic partnership, energy cooperation, transport-logistics, digital economy, governance potential*

# ОСНОВНЫЕ ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ОТНОШЕНИЯ КИТАЯ И АЗЕРБАЙДЖАНА В XXI ВЕКЕ, И ИХ ЭКОНОМИЧЕСКОЕ ЗНАЧЕНИЕ

**Айдан Ф. Гусейнли**
*Бакинский Инженерный Университет, магистратура*
*Э-почта: aydanhuseynli23@icloud.com*
*ORCID: 0009-0000-8699-1009*

**Аннотация**
XXI век характеризуется как период, когда отношения между Китаем и Азербайджаном вышли на уровень стратегического партнерства. Это партнерство вышло за рамки исторических дипломатических связей, приобретя более глубокий и многоаспектный характер, играя значительную роль в политической, экономической и транзитной сферах. В формировании этих отношений решающую роль сыграли несколько факторов, включая глобальные политические изменения, процессы региональной экономической интеграции, энергетические стратегии и транспортно-логистические возможности. В условиях глобализации эти факторы способствовали усилению сотрудничества между двумя странами и придавали ему новое содержание.
С момента установления дипломатических отношений в 1992 году отношения между Китаем и Азербайджаном постепенно расширялись, развиваясь в многоаспектную модель сотрудничества, основанную на взаимных интересах, а не ограниченную политическим диалогом. Это сотрудничество в XXI веке непосредственно связано с региональными и глобальными целями, определенными на стратегическом этапе. Таким образом, Китай рассматривает Азербайджан не только как инвестиционного и торгового партнера, но и как участника в обеспечении энергетической безопасности, геополитическом балансе, международной экономической интеграции и глобальных логистических сетях.
Основными факторами, влияющими на отношения между Китаем и Азербайджаном в XXI веке, являются энергетическое сотрудничество, передача технологий, развитие образовательных и культурных связей, расширение инвестиционных проектов, а также инициативы в области цифровой и зеленой экономики. Кроме того, высокий потенциал управления, институциональная стабильность и эффективная реализация международных проектов Азербайджана являются ключевыми факторами развития этих отношений. В частности, недавно подписанные соглашения о стратегическом сотрудничестве уделяют внимание «цифровой экономике», «зеленой энергетике» и «правам интеллектуальной собственности», что демонстрирует соответствие двусторонних отношений современным вызовам.
В заключение, исследование показывает, что сотрудничество между Китаем и Азербайджаном на принципах взаимной выгоды не может ограничиваться только дипломатическими и экономическими подходами. Для устойчивого развития отношений критически важно укрепление правово-институциональных основ, внедрение эффективных механизмов управления и рациональное использование транспортно-логистического потенциала. В этом плане XXI век ясно демонстрирует как перспективы, так и ограничения отношений между Китаем и Азербайджаном.
***Ключевые слова:*** *Отношения Китай–Азербайджан, стратегическое партнерство, энергетическое сотрудничество, транспортно-логистическая сеть, цифровая экономика, потенциал управления*

## GİRİŞ

XXI əsrdə Çin Azərbaycan münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Bu tərəfdaşlıq yalnız tarixi diplomatik əlaqələrdən irəli gəlmir, həm də siyasi, iqtisadi, tranzit və logistika sahələrində mühüm rol oynayan çoxşaxəli xarakterə malikdir. Bu əlaqələrin inkişafına təsir edən əsas faktorlar arasında regional və qlobal siyasi dəyişikliklər, enerji və nəqliyyat strategiyaları, investisiya və texnologiya layihələri, həmçinin təhsil və mədəni əməkdaşlıq sahələri mühüm yer tutur.
Azərbaycanın yüksək idarələşmə potensialı və institusional sabitliyi də bu münasibətlərin möhkəmliyində və davamlı inkişafında həlledici rol oynayır. Həmçinin, qlobal nəqliyyat-logistika layihələrinə, rəqəmsal və yaşıl iqtisadiyyat təşəbbüsləri Çin Azərbaycan əməkdaşlığının strateji əhəmiyyətini artıran əlavə faktorlar kimi çıxış edir.
Çin–Azərbaycan münasibətlərinin inkişafı yalnız iqtisadi maraqlarla məhdudlaşmır, eyni zamanda tərəflərin regional geosiyasi balansda mövqelərini gücləndirmək və Avrasiya məkanında strateji rolunu artırmaq məqsədləri ilə də sıx bağlıdır.
Məqalənin məqsədi XXI əsrdə Çin Azərbaycan münasibətlərinə təsir edən əsas faktorları araşdırmaq, strateji tərəfdaşlığın mövcud vəziyyətini qiymətləndirmək və gələcək perspektivlərini müəyyən etməkdir.

### Çin–Azərbaycan Münasibətlərinin Konseptual və Siyasi-Strateji Çərçivəsi

XXI əsrdə Çin Azərbaycan münasibətləri tarixi diplomatik əlaqələrdən daha dərin, çoxşaxəli və strateji xarakter almışdır. 1992-ci ildə diplomatik münasibətlərin qurulması ilə başlayan əməkdaşlıq, yalnız rəsmi dialoqla kifayətlənməyərək siyasi, iqtisadi, tranzit, logistika və mədəni sahələri əhatə edən geniş tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir (Ismayilov, 2023). Bu tərəfdaşlıq regionda sabitliyin qorunması, qlobal və regional ticarət marşrutlarının təhlükəsizliyinin təmin olunması, enerji resurslarının idarə olunması və qarşılıqlı fayda prinsipləri üzərində qurulmuşdur (Bağırzadə, 2025b).
Siyasi və strateji əməkdaşlıq Çin Azərbaycan münasibətlərinin ən vacib sütunlarından biridir. Bu əməkdaşlıq çərçivəsində imzalanmış Strateji Tərəfdaşlıq Bəyannaməsi (2015) siyasi dialoqu sistemləşdirmiş, regional məsələlərdə birgə mövqe nümayiş etdirmək üçün mexanizmlər yaratmışdır (Birgə Bəyannamə, 2024). Tərəflər bu sənədə əsasən beynəlxalq platformalarda qarşılıqlı dəstək göstərmək və regional təhlükəsizliyi qorumaq öhdəliyi götürmüşdür. Bununla yanaşı, yüksək səviyyəli səfərlər, diplomatik kanalların aktivliyi və çoxtərəfli görüşlər siyasi dialoqun davamlılığını təmin edir və qarşılıqlı etimadın formalaşmasına xidmət edir (Ismayilov, 202; Buzan & Waever, 2003).
Azərbaycanın yüksək idarələşmə potensialı və institusional stabilliyi bu əməkdaşlığın effektivliyində xüsusi rol oynayır. Dövlətin güclü idarəetmə sistemi siyasi qərarların vaxtında icrasını, iqtisadi və tranzit layihələrinin koordinasiyasını və beynəlxalq layihələrin praktik həyata keçirilmısini təmin edir (Baghirzade, 2024; Bağırzadə, 2023).
Bir Kəmər, Bir Yol layihəsi siyasi-strateji əməkdaşlığın formalaşmasında xüsusi əhəmiyyətə malikdir. Layihə Azərbaycanı yalnız tranzit ölkəsi kimi təqdim etmir, eyni zamanda regional və qlobal layihələrdə strateji tərəfdaş kimi iştirakına imkan yaradır (Abbaszadə, 2020; Hague Centre for Strategic Studies.). Layihə çərçivəsində həyata keçirilən birgə tədbirlər və infrastruktur layihələri, məsələn, Bakı–Tbilisi–Qars dəmiryolu və Orta Dəhliz marşrutları, ölkələr arasında siyasi dialoqu daha praktik və əməli mexanizmlərlə dəstəkləyir (Liu, 2020). Bu təşəbbüs çərçivəsində 2020-ci ildən sonra gündəmə gələn Zəngəzur dəhlizi layihəsi regionda yeni nəqliyyat bağlantılarının yaradılmasına yönəlmişdir və bu dəhliz gələcəkdə Çin ilə Avropa arasında marşrutların daha da optimallaşdırılmasına şərait yarada bilər. Bu isə Azərbaycanın strateji əhəmiyyətini əhəmiyyətli dərəcədə artırır.

Çin tərəfindən irəli sürülmüş "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Azərbaycan Avrasiya məkanında mühüm tranzit ölkə kimi çıxış edir. Bu kontekstdə Bakı–Tbilisi–Qars dəmir yolu və Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Çin ilə Avropa arasında alternativ ticarət marşrutlarının formalaşmasına imkan yaradır.
Siyasi əməkdaşlıq həm ikitərəfli, həm də çoxtərəfli platformalarda inkişaf edir. Qlobal və regional geosiyasi kontekst Çin–Azərbaycan münasibətlərinə təsir göstərir; məsələn, Qafqaz regionunda sabitliyin qorunması, enerji resurslarının idarə olunması və beynəlxalq ticarət marşrutlarının təhlükəsizliyi siyasi əməkdaşlığın prioritetlərini müəyyən edir. Bu kontekstdə Azərbaycan, Çin ilə əməkdaşlığı yalnız iqtisadi maraqlar baxımından deyil, həm də regional təhlükəsizliyi və strateji balansı qorumaq baxımından strateji əhəmiyyətli hesab edir (Dugin, 2020).
Siyasi əməkdaşlıq faktorları arasında diplomatik dialoq, yüksək səviyyəli görüşlər, strateji sənədlər və Bir Kəmər, Bir Yol layihəsi xüsusi rol oynayır. Bu əlaqələr yalnız formal sənədlərlə kifayətlənməyərək, həm də qarşılıqlı maraqların qorunması və regional sabitliyin təmin olunması ilə davamlı olaraq möhkəmlənir (Buzan & Waever, 2003).
Bundan əlavə, siyasi-strateji əməkdaşlıq iqtisadi və tranzit sahələrinə də təsir göstərir. Siyasi etimad və koordinasiya nəticəsində enerji və ticarət layihələrinin icrası daha rahat və səmərəli həyata keçirilir. Beləliklə, siyasi əməkdaşlıq yalnız siyasi dialoqdan ibarət olmur, həm də iqtisadi, tranzit və mədəni sahələrdə əməkdaşlıq üçün möhkəm zəmin yaradır (Rzayeva, 2022; Bağırzadə, 2025a; Baghirzade, 2024).

## İqtisadi və Tranzit faktorlar

İqtisadi və tranzit logistika əməkdaşlığı Çin Azərbaycan münasibətlərinin XXI əsrdə inkişafında strateji rol oynayır. Diplomatik və siyasi çərçivənin möhkəmlənməsindən sonra tərəflər iqtisadi sahədə qarşılıqlı maraqların qorunmasına fokuslanmışdır (Bağırzadə, 2025a; Liu, 2020). Ticarət dövriyyəsi son iki onillikdə əhəmiyyətli dərəcədə artmış və yalnız sadə malların alış-verişi ilə kifayətlənməmişdir; həm də qarşılıqlı investisiyaların və enerji layihələrinin inkişafına şərait yaratmışdır (Rzayeva, 2022).
Energetika əməkdaşlığı Çin Azərbaycan münasibətlərində xüsusi əhəmiyyət daşıyır. Azərbaycan neft və qaz ehtiyatları, həmçinin bu resursların ixrac infrastrukturu Çin üçün etibarlı enerji mənbəyi təmin edir (Abbaszadə, 2020). Eyni zamanda, Çin şirkətləri Azərbaycanda enerji layihələrinə sərmayə yatıraraq, uzunmüddətli iqtisadi əlaqələrin möhkəmlənməsinə töhfə verirlər (Rzayeva, 2022; Hague Centre for Strategic Studies [Hagueresearch.org], t.y.). 2011-ci ildə yaradılmış Sumqayıt Kimya Sənaye Parkı çərçivəsində həyata keçirilən layihələrdə Çin şirkətlərinin iştirakı sənaye əməkdaşlığının genişlənməsinə töhfə verir. 2020-ci ildə yaradılmış Ələt Azad İqtisadi Zonası xarici investisiyaların, xüsusilə Çin kapitalının cəlb olunması üçün mühüm platforma rolunu oynayır və ölkənin sənaye potensialının inkişafına töhfə verir.
Son illərdə Çin Azərbaycanın əsas ticarət tərəfdaşlarından birinə çevrilmişdir. Məsələn, Azərbaycanın Çin ilə ticarət dövriyyəsi 2023-cü ildə 3.1 milyard dollar olmuşdur və 2024-cü ildə iki ölkə arasında ticarət dövriyyəsi 3.7 milyard dollar olmuşdur (Ereforms, 2024; News.az, 2024; MFA Azerbaijan, 2024). Enerji sahəsində əməkdaşlıq Çin–Azərbaycan iqtisadi münasibətlərinin mühüm istiqamətlərindən biridir və bu sahədə qarşılıqlı investisiya və texnologiya mübadiləsi perspektivli hesab olunur. Azərbaycanda 370-dən çox Çin şirkəti fəaliyyət göstərir və Çin investisiyalarının həcmi 950 milyon dollardan çoxdur (AzeMedia, 2025).
Azərbaycanın yüksək idarələşmə potensialı və institusional sabitliyi iqtisadi və tranzit-logistika layihələrinin uğurla həyata keçirilməsində mühüm rol oynayır. Dövlət qurumlarının koordinasiyası və hüquqi-institusional bazanın möhkəmliyi layihələrin vaxtında və səmərəli icrasını təmin edir (Baghirzade, 2024; Bağırzadə, 2023).

Bir Kəmər, Bir Yol layihəsi iqtisadi və tranzit əməkdaşlığının inkişafında vacib rol oynayır. Layihə çərçivəsində Azərbaycan Orta Dəhliz marşrutu və 2017-ci ildə istifadəyə verilmiş Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi Çin ilə Avropa arasında yük daşımalarının həyata keçirilməsində mühüm rol oynayır. Bu layihə daşımaların müddətini əhəmiyyətli dərəcədə azaltmaqla Azərbaycanın tranzit ölkə kimi strateji mövqeyini gücləndirmişdir. (Birgə Bəyannamə, 2024; Liu, 2020). 2014-cü ildən etibarən aktiv şəkildə inkişaf etdirilən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Çin ilə Avropa arasında alternativ ticarət yolunun formalaşmasına xidmət edir və Azərbaycanın bu marşrutda rolu getdikcə güclənir. Bu marşrutlar regional logistikanın səmərəliliyini artırmaqla yanaşı, iqtisadi əməkdaşlığın davamlılığını təmin edir və ölkənin qlobal ticarət şəbəkəsində strateji mövqeyini gücləndirir.
Bundan əlavə, Şərq–Qərb nəqliyyat dəhlizi və bu marşrut üzrə həyata keçirilən infrastruktur layihələri Çin ilə Avropa arasında yük daşımalarının alternativ və daha sürətli həyata keçirilməsinə imkan yaradır. Bu isə Azərbaycanın qlobal ticarət zəncirində əsas tranzit mərkəzlərindən birinə çevrildiyini göstərir.
Azərbaycanın coğrafi mövqeyi ölkənin beynəlxalq logistika sistemində rolunu artırır. Xüsusilə 2018-ci ildə istifadəyə verilmiş Bakı Beynəlxalq Dəniz Ticarət Limanı regionun əsas logistika mərkəzlərindən biri kimi çıxış edir və Transxəzər marşrutu üzrə yükdaşımaların həcminin artmasına imkan yaradır.
Son illərdə iqtisadi əməkdaşlıqda yeni sahələr də prioritet olub. Rəqəmsal iqtisadiyyat və yaşıl enerji sahələrinə sərmayələrin artırılması, texnologiya transferləri və innovasiya layihələri Çin Azərbaycan münasibətlərinə əlavə dəyər qatır (Azərtac; Gürses, 2018). 2015-ci ildən etibarən inkişaf etdirilən "Rəqəmsal İpək Yolu" təşəbbüsü çərçivəsində Azərbaycan ilə Çin arasında rəqəmsal iqtisadiyyat sahəsində əməkdaşlıq genişlənir. 2019-cu ildə irəli sürülmüş Transxəzər fiber-optik kabel layihəsi regionda məlumat ötürülməsi imkanlarını genişləndirməklə Azərbaycanın rəqəmsal tranzit mərkəzinə çevrilməsinə töhfə verir. Bu istiqamət həm iqtisadi inkişafı sürətləndirir, həm də tərəflərin əməkdaşlıq imkanlarını genişləndirir.
Son illərdə rəqəmsal iqtisadiyyat və informasiya texnologiyaları sahəsində əməkdaşlıq genişlənir və Çin texnologiya şirkətləri Azərbaycanın telekommunikasiya infrastrukturunun inkişafında iştirak edir.
Xüsusilə Huawei və ZTE kimi Çin texnologiya şirkətləri regionda rəqəmsal layihələrin həyata keçirilməsində mühüm rol oynayır. Azərbaycan və Çin rəqəmsal iqtisadiyyat, süni intellekt və "smart city" layihələri üzrə də əməkdaşlıq edir (Azərbaycanın Çindəki Səfirliyi [MFA 2023]).
Tranzit logistika və investisiya layihələri siyasi əməkdaşlıqla birbaşa bağlıdır. Siyasi etimadın möhkəmliyi, diplomatik kanalların işləməsi və strateji sənədlər iqtisadi layihələrin daha rahat və uğurla həyata keçirilməsini təmin edir. Nəticədə, iqtisadi və tranzit, logistika faktorları Çin Azərbaycan münasibətlərinin davamlılığı və strateji inkişafında əsas rola malikdir (Rzayeva, 2022; Bağırzadə, 2025a; Baghirzade, 2024
Beləliklə, XXI əsrdə iqtisadi və tranzit logistika faktorları yalnız qarşılıqlı fayda prinsiplərinə əsaslanmır, həm də regional geosiyasi və strateji maraqlar baxımından da kritik əhəmiyyət kəsb edir. Bu faktorlar siyasi əməkdaşlıqla uzlaşaraq, tərəflər arasında daha kompleks və davamlı tərəfdaşlıq modelini yaradır (Abbaszadə, 2020). Bu baxımdan Çin–Azərbaycan əməkdaşlığı regionun digər ölkələri ilə müqayisədə daha çox tranzit-logistika və enerji təhlükəsizliyi üzərində formalaşan spesifik əməkdaşlıq modeli kimi xarakterizə oluna bilər.

**Mədəni, Təhsil və Regional Risk Faktorları**

Mədəni və təhsil sahəsində əməkdaşlıq Çin–Azərbaycan münasibətlərinin davamlılığında əhəmiyyətli rol oynayır. Universitetlərarası əməkdaşlıq, elmi və təhsil mübadiləsi, habelə birgə tədqiqat layihələri siyasi və iqtisadi əməkdaşlığı dəstəkləyir (Bağırzadə, 2025b). Bu təşəbbüslər iki ölkə arasında qarşılıqlı etimadın möhkəmlənməsinə xidmət edir və gələcəkdə strateji tərəfdaşlıq üçün

insan kapitalının inkişafını təmin edir. Təhsil sahəsində əməkdaşlıq çərçivəsində tələbə və akademik mübadilə proqramları həyata keçirilir. Həmçinin 2011-ci ildən etibarən Azərbaycanda fəaliyyət göstərən Konfutsi İnstitutu Çin dili və mədəniyyətinin təbliği ilə yanaşı, tələbə mübadiləsi və akademik əməkdaşlığın inkişafına töhfə verir. Bu təşəbbüs iki ölkə arasında humanitar əlaqələrin institusional əsasda möhkəmlənməsinə xidmət edir. Mədəni əlaqələr də bu əməkdaşlığın mühüm komponentidir. Birgə mədəni layihələr, sərgilər, festivallar və təhsil proqramları ölkələr arasında qarşılıqlı anlaşmanı artırır və sosial əlaqələri gücləndirir (Bağırzadə, 2025a). Mədəni əməkdaşlıq, həmçinin siyasi və iqtisadi əlaqələrin dərinləşməsinə zəmin yaradır, çünki sosial etimadın möhkəmliyi iqtisadi və strateji layihələrin səmərəli icrasını asanlaşdırır. 2019-cu ildən etibarən bu təşkil olunan mədəni tədbirlər, sərgilər və "Çin mədəniyyəti günləri" kimi layihələr xalqlar arasında qarşılıqlı anlayışın güclənməsinə və sosial əlaqələrin dərinləşməsinə şərait yaradır.
Regional risklər və geosiyasi balans da Çin Azərbaycan münasibətlərinə təsir edən əsas faktorlardandır. Qafqaz regionunun mürəkkəb geosiyasi mühiti, ətraf ölkələrdə baş verən konfliktlər və enerji resurslarının paylanması ilə bağlı məsələlər tərəflərin strateji planlarını müəyyən edir (Buzan & Waever, 2003). Bu risklər siyasi və iqtisadi qərarlara təsir göstərməklə yanaşı, mədəni və təhsil sahələrində də əməkdaşlıq imkanlarını formalaşdırır.
Eyni zamanda, beynəlxalq ticarət marşrutlarının təhlükəsizliyi və enerji təchizatı məsələləri regional risk faktorları ilə sıx bağlıdır. Çin üçün Azərbaycan yalnız enerji resurslarına çıxış təmin edən bir ölkə deyil, həm də strateji tranzit və logistika mərkəzi kimi regionun geosiyasi sabitliyinə töhfə verir (Birgə Bəyannamə, 2024; Liu, 2020). Bu baxımdan, regional risklərin idarə olunması və tərəflərin əməkdaşlıq imkanlarının genişləndirilməsi mədəni və təhsil sahələrində də strateji əhəmiyyət kəsb edir.
Nəticə etibarilə, mədəni, təsil və regional risk faktorları Çin Azərbaycan münasibətlərinin çoxşaxəli xarakterini tamamlayır. Bu faktorlar siyasi və iqtisadi əməkdaşlığı dəstəkləyir, strateji tərəfdaşlığı gücləndirir və tərəflər arasında qarşılıqlı etimad və uzunmüddətli əməkdaşlıq üçün möhkəm zəmin yaradır (Rzayeva, 2022; Bağırzadə, 2025b).

## NƏTİCƏ

XXI əsrdə Çin–Azərbaycan münasibətləri siyasi, iqtisadi, tranzit-logistika, mədəni və təhsil sahələrini əhatə edən çoxşaxəli strateji tərəfdaşlıq modelinə çevrilmişdir. Aparılan tədqiqat göstərir ki, bu münasibətlərin formalaşması və inkişafı bir-biri ilə qarşılıqlı əlaqədə olan siyasi-strateji, iqtisadi və humanitar faktorların təsiri altında baş verir. Qloballaşma prosesləri, regional iqtisadi inteqrasiya, enerji təhlükəsizliyi və beynəlxalq nəqliyyat marşrutlarının əhəmiyyəti Çin və Azərbaycan arasında əməkdaşlığın genişlənməsini stimullaşdıran əsas amillər sırasındadır.
Siyasi əməkdaşlıq iki ölkə münasibətlərinin əsas institusional dayaqlarından biri kimi çıxış edir. Diplomatik əlaqələrin qurulmasından sonra tərəflər arasında siyasi dialoq ardıcıl şəkildə inkişaf etmiş, yüksək səviyyəli görüşlər və imzalanmış strateji sənədlər bu əməkdaşlığın hüquqi və institusional əsaslarını formalaşdırmışdır. Strateji tərəfdaşlıq çərçivəsində həyata keçirilən qarşılıqlı diplomatik fəaliyyət regional və beynəlxalq məsələlərdə mövqelərin koordinasiyasına, həmçinin siyasi etimadın möhkəmlənməsinə mühüm töhfə verir. Bu proses iki ölkənin beynəlxalq təşkilatlar və çoxtərəfli platformalar çərçivəsində əməkdaşlığını da gücləndirir.
İqtisadi münasibətlər Çin–Azərbaycan əməkdaşlığının ən dinamik istiqamətlərindən biri hesab olunur. Son illərdə ticarət dövriyyəsinin artması, qarşılıqlı investisiya layihələrinin genişlənməsi və enerji sahəsində əməkdaşlığın inkişafı iqtisadi əlaqələrin dərinləşdiyini göstərir. Azərbaycanın enerji resursları və enerji ixrac infrastrukturu Çin üçün etibarlı tərəfdaşlıq imkanları yaradır. Bununla yanaşı, Çin şirkətlərinin Azərbaycanda müxtəlif infrastruktur və sənaye layihələrində iştirakı iqtisadi əməkdaşlığın institusional və praktiki əsaslarının möhkəmlənməsinə xidmət edir.

Tranzit və logistika potensialı da Çin–Azərbaycan münasibətlərində xüsusi əhəmiyyətə malikdir. Azərbaycanın coğrafi mövqeyi ölkəni Avrasiya məkanında mühüm nəqliyyat qovşaqlarından birinə çevirir. Bu baxımdan Orta Dəhliz marşrutu, Bakı–Tbilisi–Qars dəmir yolu və digər nəqliyyat infrastrukturu layihələri Çin ilə Avropa arasında yük daşımalarının alternativ marşrutlarının formalaşmasına şərait yaradır. Həmin layihələr təkcə iqtisadi əməkdaşlığı gücləndirmir, eyni zamanda regionun logistika sistemində Azərbaycanın strateji rolunu artırır. “Bir kəmər, bir yol” təşəbbüsü çərçivəsində bu nəqliyyat imkanlarının genişlənməsi Çin–Azərbaycan əməkdaşlığının yeni mərhələyə keçdiyini göstərir.

Son illərdə əməkdaşlığın yeni istiqamətləri də formalaşmaqdadır. Rəqəmsal iqtisadiyyat, yaşıl enerji, innovasiya texnologiyaları və intellektual mülkiyyət sahələrində əməkdaşlığın inkişafı tərəflərin strateji prioritetlərinin müasir qlobal çağırışlara uyğunlaşdırıldığını göstərir. Bu istiqamətlər üzrə həyata keçirilən təşəbbüslər yalnız iqtisadi inkişafı sürətləndirmir, həm də texnologiya transferi və innovasiya mühitinin formalaşmasına şərait yaradır.

Humanitar əməkdaşlıq, xüsusilə təhsil və mədəni əlaqələr, Çin–Azərbaycan münasibətlərinin sosial və institusional əsaslarını gücləndirən mühüm faktor kimi çıxış edir. Universitetlərarası əməkdaşlıq, tələbə və akademik mübadilə proqramları, birgə elmi layihələr iki ölkə arasında elmi və intellektual əlaqələrin inkişafına şərait yaradır. Mədəni tədbirlər və humanitar təşəbbüslər isə xalqlar arasında qarşılıqlı anlayışın və sosial əlaqələrin möhkəmlənməsinə xidmət edir.

Araşdırma həmçinin regional geosiyasi faktorların və təhlükəsizlik məsələlərinin Çin–Azərbaycan münasibətlərinə müəyyən təsir göstərdiyini ortaya qoyur. Qafqaz regionunun mürəkkəb geosiyasi mühiti, beynəlxalq enerji və nəqliyyat marşrutlarının təhlükəsizliyi, həmçinin regional siyasi proseslər tərəflərin strateji qərarlarının formalaşmasında mühüm rol oynayır. Bununla yanaşı, iki ölkə arasında mövcud olan siyasi etimad və qarşılıqlı maraqlar bu risklərin idarə olunmasına və əməkdaşlığın davamlılığının qorunmasına imkan yaradır.

Azərbaycanın idarəetmə potensialı və institusional sabitliyi də əməkdaşlığın inkişafında mühüm amillərdən biri kimi çıxış edir. Effektiv dövlət idarəetməsi beynəlxalq layihələrin həyata keçirilməsini asanlaşdırır, investisiya mühitinin inkişafına və iqtisadi layihələrin koordinasiyasına şərait yaradır. Bu faktor xüsusilə iri nəqliyyat və infrastruktur layihələrinin həyata keçirilməsində özünü aydın şəkildə göstərir.

Ümumilikdə, aparılan tədqiqat Çin–Azərbaycan münasibətlərinin qarşılıqlı fayda prinsiplərinə əsaslanan və müxtəlif sahələri əhatə edən kompleks əməkdaşlıq modeli formalaşdırdığını göstərir. Siyasi dialoq, iqtisadi əməkdaşlıq, tranzit və logistika imkanları, humanitar əlaqələr və innovativ inkişaf istiqamətləri bu münasibətlərin davamlı inkişafını təmin edən əsas faktorlar kimi çıxış edir. Bu faktorların qarşılıqlı inteqrasiyası Çin və Azərbaycan arasında strateji tərəfdaşlığın daha da dərinləşməsi üçün əlverişli zəmin yaradır.

Beləliklə, nəqliyyat infrastrukturu layihələri, iqtisadi əməkdaşlıq və humanitar əlaqələrin inkişafı Çin–Azərbaycan strateji tərəfdaşlığının davamlı və çoxşaxəli xarakter daşıdığını göstərir.

Gələcək perspektivdə əməkdaşlığın daha da inkişafı siyasi dialoqun davamlılığı, iqtisadi və investisiya layihələrinin genişləndirilməsi, nəqliyyat və logistika infrastrukturlarının inkişaf etdirilməsi, həmçinin rəqəmsal və yaşıl iqtisadiyyat sahələrində yeni təşəbbüslərin həyata keçirilməsi ilə bağlı olacaqdır. Bu istiqamətlər üzrə atılacaq addımlar Çin–Azərbaycan münasibətlərinin yalnız ikitərəfli deyil, həm də regional və qlobal iqtisadi əməkdaşlıq baxımından əhəmiyyətini daha da artıracaqdır. Gələcək perspektivdə rəqəmsal iqtisadiyyat, yaşıl enerji və innovasiya texnologiyaları sahəsində əməkdaşlığın genişlənməsi Çin–Azərbaycan münasibətlərinin yeni inkişaf mərhələsini müəyyən edəcək əsas istiqamətlərdən biri kimi çıxış edə bilər.

## ƏDƏBİYYAT SİYAHISI

**1.** Abbaszadə, N. (2020). Bir Kəmər, Bir Yol Projesi Bağlamında Azərbaycan–Çin İlişkileri. Bakı: Bakı Dövlət Universiteti.
**2.** Aze.Media. (2024). Azerbaijan and China enter a new stage of economic and technological cooperation. https://aze.media/azerbaijan-and-china-enter-a-new-stage-of-economic-and-technological-cooperation/
**3.** Azərbaycanın Çin Xalq Respublikasındakı Səfirliyi. (2023.). Trade and economic relations. https://beijing.mfa.gov.az/en/category/trade-and-economic-relations
**4.** Azertag.az. (t.y.). Strategic Dimensions of Azerbaijan-China Relations. https://azertag.az/
**5.** Əliyev, M. (2021). Çinin xarici siyasət strategiyaları və Avrasiya regionu. Bakı: Elm və Təhsil Nəşriyyatı.
**6.** Bağırzadə, M. (2021). İdarələşmənin (Governance) Etimoloji Mahiyəti və Azərbaycandaki Mövcud Vəziyyət. The Sustainable Development of Economy and Administration: Problems and Perspectives II International Scientific And Practical Conference, 332–336.
**7.** Bağırzadə, M. (2023). Etymology and semantic basis of the termination of the expression (governance). Terminology Issues, 01, 97–100.
**8.** Bağırzadə, M. (2025). Investment Projects in Azerbaijan-China Relations. ResearchGate.
**9.** Bağırzadə, M. (2025). Research on Strategic Relations Between Azerbaijan and China. Bakı: Bakı Araşdırmalar İnstitutu.
**10.** Baghirzade, M. (2024). The Role of Global Digital Governance in the Support of the East–West Transport Corridor: Azerbaijan's Current Advantages. 3rd International Conference on Problems of Logistics, Management and Operation in the East–West Transport Corridor.
**11.** Baghirzade, M., & Kosormyhin, T. (2025). Investigation of Impact of Oil, Gold and Natural Gas Prices on Clean Energy Stock Prices. Financial Markets, Institutions and Risks, 9(3), 101–119.
**12.** Buzan, B., & Waever, O. (2003). Regions and Powers: The Structure of International Security. Cambridge: Cambridge University Press.
**13.** Dugin, A. (2020). Avrasiyaçılıq və qlobal güc balansı. Moskva: Knijniy Mir.
**14.** Gürses, E. (2018). Kuşak ve Yol Girişimi (BRI): Çin'in Yeni Küresel Stratejisi. İstanbul: SETA Yayınları.
**15.** Hagueresearch.org. Bridging Eurasia: China–Azerbaijan Relations, The Middle Corridor and The Belt and Road Initiative.
**16.** Ismayilov, M. (2023). Zəngəzur dəhlizi və Azərbaycanın nəqliyyat-logistika strategiyasında Çinin rolu. Qafqaz Beynəlxalq Münasibətlər Jurnalı.
**17.** Joint Declaration: Azerbaijan-China on Establishment of Strategic Partnership.
**18.** Liu, H. (2020). China's Belt and Road Initiative and its Implications for the Caucasus Region. Silk Road Papers, Central Asia-Caucasus Institute.
**19.** Ministry of Foreign Affairs of the People's Republic of China. (2023). China's Position on the Political Settlement of the Ukraine Crisis.
**20.** **News.az.** (2024). Azerbaijan-China trade volume surpasses $3 billion in 2024. https://news.az/news/azerbaijan-china-trade-volume-surpasses-3-billion-in-2024
**21.** Rzayeva, G. (2022). Azərbaycan-Çin münasibətləri: iqtisadi, siyasi və mədəni aspektlərdə inkişaf dinamikası. Bakı Dövlət Universiteti Elmi əsərləri, №2, s. 45–61.
**22.** Yusuf, S. (2019). The Belt and Road Initiative: A Pathway to Regional Connectivity. World Bank Group.